# "Laçın" qızıl və gümüş sikkə kolleksiyası təqdim edildi







**Azərbaycanın aparıcı dağ-mədən şirkəti "AzerGold" QSC daha bir gümüş və qızıl sikkə kolleksiyasını təqdim edib. Qurumun Mətbuat xidmətindən verilən məlumata görə, yeni sikkə kolleksiyası füsunkar təbiəti, qədim tarixi ilə seçilən və gündən-günə abadlaşan Laçın şəhərinə ithaf olunub.**

Sikkənin hazırlanmasında Laçın bölgəsinin mədəni irsinin, sənət ənənələrinin və xalq yaradıcılığının vacib bir hissəsi olan, Qarabağ xalçaçılıq məktəbinə aid "Qasımuşağı" xalçasının naxışlarından istifadə edilib. Sikkənin əsas elementi dövlət rəmzlərinin əsas tərkib hissələrindən biri - səkkizguşəli ulduz və kənarlarındakı Laçın quşunun həndəsi formalı motivləridir. Laçın quşu azad ruhun, əzəmətin, gücün və cəsarətin rəmzidir. Təsvir həm də Laçın şəhərinin adının mənşəyi ilə bağlı ən geniş yayılmış fərziyələrdən birinə işarədir. Sikkənin haşiyəsindəki qədim naxış elementləri arasında diqqətli baxışla sezilən, məhsulun incə və zərif şəkildə həkk olunmuş adı - "Lachin" yazısı kompozisiyaya xüsusi məna qatır.

Qeyd edək ki, "Laçın" kolleksiyası "AzerGold" QSC-nin təşəbbüsü ilə istehsal edilən sayca 13-cü kolleksiyadır. Yeni məhsullar ölkəmizdə hasil edilən qızıl və gümüşdən 5, 10, 20 qram çəkilərdə hazırlanıb. İstehlakçılar kolleksiyanı "AzerGold" QSC-nin Bakı şəhəri, Bülbül prospekti 3 ünvanında yerləşən Satış və Mübadilə Mərkəzindən, eləcə də şirkətin onlayn satış platforması **www.azergold.gift**-dən sifariş edərək əldə edə bilərlər.

Azərbaycan qızılı və gümüşündən müxtəlif dizaynlarda sikkələr, eləcə də qızıl külçələr ilk dəfə 2018-ci ildə istehsal edilərək, 2019-cu ildən yerli pərakəndə satış bazarına təqdim olunub. Məqsəd ölkəmizin qiymətli metallar bazarının inkişafına təkan vermək və pərakəndə satışı stimullaşdırmaqdır. Qızıl sikkə kolleksiyaları ölkəmizin, onun tarixi, incəsənəti, mədəni irsinin və digər dəyərlərinin təbliğinə xidmət edən unikal hədiyyə seçimi, həm də istənilən zaman milli valyuta ilə mübadilə edilə bilən sərfəli investisiya alətidir.

Azərbaycan.- 2025.- 7 oktyabr (№ 215).- S.6.